# Laçınlı müəllimlər 31 ildən sonra peşə bayramlarını yenidən doğma məktəblərində qeyd edirlər






**Təhsil gələcəyimiz, müəllim isə təhsildə əsas sima, nüfuzlu şəxsdir. Onun əməyi əsl vətənpərvərlik nümunəsidir. Azərbaycan dövləti bu müqəddəs peşə sahiblərinin şərəfli əməyini həmişə yüksək qiymətləndirib.**



Müəllimlərimiz hər zaman fəaliyyətlərində vətənimizin və millətimizin gələcəyi olan şagirdlərin layiqli vətəndaş olmaları, vətənpərvər ruhda yetişmələri üçün ardıcıl və prinsipial xidmət göstərirlər. Təhsil haqqında qanunun da əsas qayəsini bu təşkil edir: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək".

Azərbaycan müəllimi bu missiyanı layiqincə yerinə yetirir. Qarabağı görməyən oğullar düşünmədən vətən torpağı uğrunda canlarından keçərkən bir an belə tərəddüd etmədilər. Təsadüfi deyil ki, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev müəllimlərin əməyini yüksək qiymətləndirərək demişdir: "Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır".

Prezident İlham Əliyev də hər zaman müəllimlərə xüsusi diqqət göstərir, onların peşə nüfuzunun artırılması, maddi rifahının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görür. Bu gün Azərbaycan müəllimi daha qürurlu, daha fəxarət dolu bir həyat yaşayır, başını dik tutur. Çünki onlar qalib ölkənin qalib müəllimləridir, qəhrəman vətən övladlarını yetişdirən insanlardır.

Sevindirici, qürurverici faktdır ki, 30 illik ayrılıqdan sonra öz doğma yurdundan, evindən, doğma məktəbindən didərgin salınmış Azərbaycan müəllimi peşə bayramını öz təhsil ocaqlarında - Laçında, Zəngilanda, Füzulidə qeyd edir. Müəllimlərimiz üçün bu gün bir də ona görə əzizdir ki, illərdir separatçıların məskən salıb milli ədavəti qızışdırdıqları Xankəndi cinayətkar ünsürlərdən təmizlənir.

Laçın şəhər 2 saylı məktəbin direktoru Sevinc Cabbarova deyir ki, dövlətimizin təhsilə olan münasibəti biz müəllimləri çox sevindirir: "Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunan torpaqlarda ilk olaraq məktəblərin, təhsil müəssisələrinin təməlini qoyur. Qürurla deyə bilərik ki, 30 ildən sonra öz qapılarını yenidən doğma şagirdlərinin üzünə açmış Laçın şəhər 2 saylı məktəbi də Azərbaycan Prezidentinin sərəncamı ilə ilk bərpa olunan təhsil ocağıdır. İşğalın hər üzünü görmüş, uzun illər divarları qan qoxuyan bu məktəb indi yeni binasında müasir tələblərə cavab verən yüksək texnoloji avadanlıqlarla təmin edilmişdir. Biz doğma torpaqlarımızdan məcburən ayrıldığımız zaman da Laçından uzaqlarda fəaliyyət göstərəndə də şagirdlərə azərbaycançılıq məfkurəsini aşılamış, onların vətənpərvər ruhda yetişməsi üçün bütün gücümüzlə çalışmışıq. Əminliklə deyə bilərik ki, işğaldan azad edilən rayonların müəllimləri olaraq bu gün doğma yurdumuzda fəaliyyətimizin ən qürurlu günlərini yaşamaqdayıq! Hazırda məktəbimizdə 20 müəllim 60 şagirdin yüksək səviyyədə təhsil alıb vətənə layiqli vətəndaş olmaları üçün var gücü ilə, inam və məsuliyyətlə çalışır. 31 ildən sonra doğma torpaqlarımızda fəaliyyət göstərmək sevincini bizə yaşadan, Qarabağımızı düşmən işğalından xilas edən Müzəffər Ali Baş Komandanımıza məktəbimizin müəllim və şagird kollektivi adından təşəkkür edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 5 oktyabr.- S. 11.